# AZƏRBAYCAN RESPUBLİKASI
# BAKI ŞƏHƏRİ BINƏQƏDI RAYON İCRA HAKIMIYYƏTI BAŞÇISININ
# SƏRƏNCAMI

№250 «15» oktyabr 2021-ci il

**Ölkə başçısının tapşırığına uyğun olaraq, koronovirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı ölkəmizdə həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində Binəqədi rayonunda əhalinin peyvəndlənməsi prosesinin davam etdirilməsi və eyni zamanda, "booster" doza ilə peyvəndolunma mərhələsinə başlanması istiqamətində sakinlər arasında təbliğat işlərinin aparılması məqsədi ilə İşçi Qrupun yaradılması haqqında**

Koronovirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına əsasən və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın rəhbərliyi, diqqət və qayğısı ilə ölkəmizdə həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində cari ilin yanvar ayından ölkəmizdə əhalinin peyvəndlənməsi prosesi davam etdirilir və eyni zamanda, "booster" doza ilə peyvəndolunma mərhələsinə başlanılmışdır.

Binəqədi rayonunda da bu istiqamətdə mütəmadi olaraq sakinlər arasında aparılan təbliğat işləri çərçivəsində peyvəndləmə prosesi müəyyən edilmiş mərhələlərə uyğun həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş məktubda *(daxilolma: № 11-7/144, 14.10.2021)* ölkə başçısının tapşırığına uyğun olaraq, bu işlərin mütəşəkkil qaydada təşkil edilməsi və səmərəliliyinin artırılması üçün əhalinin müəyyən edilmiş yaş qupları üzrə müxtəlif sosial statuslu təbəqələrinin peyvəndlənmə prosesinə cəlb olunması və bu məqsədlə maarifləndirmə-izahat işinin daha da gücləndirilməsi, habelə digər zəruri tədbirlərin görülməsi bildirilir.

Yuxarıda qeyd olunanlara əsasən, tapşırığın icrasını təmin etmək məqsədi ilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.1.1., 3.1.4., 3.7.1., 3.7.4., 4.7.1., 4.7.2., 4.7.7. və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. Aşağıdakı tərkibdə İşçi Qrup yaradılsın:

**İşçi qrupun rəhbəri:**

| | |
|---|---|
| Elxan Allahverdiyev | Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı |
| **Üzvləri:** | |
| Sevinc Süleymanova | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini |
| Aynur Quliyeva | İnformasiya təminatı və təhlil sektorunun müdiri |
| İskəndər Cahangir-zadə | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |

| | |
|---|---|
| Yunis Hüseynov | Hüquq şöbəsinin müdiri |
| Nicat Allahverdiyev | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| Yəhya Əliyev | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| Səməndər Mənəfov | Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri |
| Azər Kərimov | Rayon təsərrüfatı şöbəsinin müdiri |
| Sabir Əliyev | Sənədlərlə və vətəndaşların müraciətləri iş şöbəsinin müdiri |
| Anar Səfərov | "1646 – Sakinlərin Müraciət Xidməti"nin rəisi |

**2.** İşçi qrupun bu istiqamətdə fəaliyyətində gündəlik işlərin təşkili, hesabatlılığın aparılması və prosesə nəzarətin təmin edilməsi məqsədi ilə RİH başçısının qəsəbə və sahə İƏD üzrə nümayəndəlikləri, Binəqədi Rayon Polis İdarəsi, Binəqədi Rayon MKTB, rayon ərazisində fəaliyyət göstərən bələdiyyələr, 4 saylı "DOST" İş Mərkəzi, Binəqədi Rayon GEM, Binəqədi Rayon Gənclər və İdman idarəsi, QMKİ üzrə DK-nın Binəqədi Rayon sektoru, "Gənclər Evi" SXM və rayon ərazisində fəaliyyət göstərən səhiyyə müəssisələri tərəfindən müəyyən edilmiş üzvlərdən ibarət mobil qruplar yaradılsın (*Əlavə 1*).

**3.** Mobil qruplara tapşırılsın ki, aidiyyəti səhiyyə müəssisələri ilə birlikdə gündəlik dürüstləşdirilmiş adlı siyahılar üzrə peyvəndlənmə prosesinə cəlb edilmiş şəxslər barədə göstəriciləri üzləşdirməklə, birinci doza vurulmayan, ikinci dozanın vurulmasını gecikdirən, "booster" dozanın vurulması zərurəti yaranan şəxsləri müəyyən etsinlər və hər gün saat 17:00-a əlavə edilmiş formaya uyğun ümumiləşdirilmiş məlumatları İşçi qrupa təqdim etsinlər (*Əlavə 2*).

**4.** İşçi qrup tərəfindən məlumatlar hər iş gününün sonunda müzakirə olunaraq yekun hesabat RİH başçısına və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilsin.

**5.** Sərəncamın surətinin aidiyyəti üzrə çatdırılması Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın.

**6.** Sərəncamın icrasına nəzarəti öz üzrəmidə saxlayıram.

**Elxan Allahverdiyev**

***Əsli ilə düzdür:***

**Sənədlərlə və vətəndaşların müraciətləri iş şöbəsinin müdiri** **Sabir Əliyev**